13 fevral / 2021

Ədəbiyyat QƏZETİ



## Fatma HƏSƏNQIZI

Amansız ölüm qələm yoldaşımız Fatma Həsənqızını aramızdan apardı.

Fatma Həsənqızı 1932-ci ildə Astara rayonunun Kakalos kəndində anadan olmuşdur. Burada natamam orta məktəbini bitirdikdən sonra 1 saylı Bakı Tibb Məktəbinə daxil olmuşdur. Əmək fəaliyyətinə tibb bacısı kimi başlamışdır. İşdən ayrılmadan Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin teatrşünaslıq fakültəsində təhsil almışdır. 1968-1972-ci illərdə "Gənclik" nəşriyyatında korrektor, texniki redaktor, 1972-1987-ci illərdə Mədəniyyət Nazirliyinin Elmi-metodik Mərkəzində baş metodist vəzifələrində işləmişdir. Uzun illər Bakıdakı 264 saylı məktəbdə "Müəllif" teatr studiyasının bədii rəhbəri olmuşdur. Bədii yaradıcılığa ötən əsrin 60-cı illərində başlamışdır. İlk hekayələri mətbuatda işıq üzü görmüşdür. Uşaqların sevimli yazıçısı olan, balaca oxucular üçün yazıb-yaradan yazıçının "Tıq-tıq xanım", "Xocalıda uşaqların fəryadı", "Döyüşçünün fəryadı", "Nəsildən nəslə" kitabları çapdan çıxıb. "Tibb bacısı", "Sehirli mahnılar", "Siz xain, biz arxayın", "Şir qəzəbi" pyesləri ölkəmizin teatrlarında səhnələşdirilmişdir. Dörd pyesi Bakı məktəblərinin dram dərnəklərinin "Bu, nağıl dünyasıdır" festivalında birinci yerə, diplom və Qran-Pri mükafatlarına layiq görülmüşdür.

Qələmini publisistika və sənətşünaslıqda da sınamış, "Məhluqə Sadıqova", "Sara Qədimova", "El ruhunda", "Acılı-şirinli günlər" kimi kitablarında görkəmli sənətkarların yaradıcılığını işıqlandırmışdır.

İstedadlı yazıçı, səmimi, təvazökar insan Fatma Həsənqızının işıqlı xatirəsi qələm yoldaşlarının qəlbində yaşayacaq.

**Allah rəhmət eləsin!**

*Azərbaycan Yazıçılar Birliyi*